"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 2 iyul 2014-cü il | № 50 (1867) | Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir

***Təlim mərkəzinə getdiyimə görə, bu gün həmişəkindən vaxtlı oyanıb pəncərədən çölə boylanıram. Hələ hava tam açılmayıb. Göydə ulduzlar sayrışır. Tələm-tələsik yola çıxıram. Vaxt keçdikcə dan yeri sökülür, hava işıqlanır. Bayaq göylərin dərinliyində sayrışan parlaq ulduzlar artıq gözə dəymir. Qaranlıq qeybə çəkilir, günəş yer üzünə boylanmağa hazırlaşır. Üfüq yavaş-yavaş al rəngə boyanır. Neçə gündən bəri əsən güclü külək dayanıb. Uzaq məsafəyə qaçıb yorulan idmançı kimi, külək də əsib-əsib gücdən düşüb, dayanıb. İndi üzümüzü yalnız səhərin soyuq mehi yalayır. Səhər ertədən yola çıxdığımız bu gün bizim üçün, Azərbaycan xalqı üçün müqəddəs və əzizdir. Bu gün hamının bayramıdır. Bu, iyunun 26-sı - Silahlı Qüvvələr Günüdür.***

***Bax belə əziz bir gündə səhər ertədən xoş ovqatla təlim mərkəzinə getmək, təlimdə iştirak etmək üçün yola çıxmışıq. Şəhər hələ yuxuda olduğundan yollarda seyrəklikdir. Gün artıq üfüqdən çıxanda, biz mənzil başına gəlib yetişdik.***

Silahlı Qüvvələrin şəxsi heyəti təlimə hazır vəziyyətdə öz mövqeyində dayanmışdı. Əvvəlcə artilleriyaçılara baş çəkdik, sonra tankçılarla, rabitəçilərlə görüşdük. Beləcə, bütün mövqeləri bir-bir gəzdik. Həmişəki kimi bu dəfə də zabit və əsgərləri yüksək ovqatda gördük. Bu bayram günündə hamının üzü gülürdü, çöhrələrdən sevinc yağırdı.

Təlim mərkəzində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirilir. Artıq təlimin yüksək səviyyədə keçirilməsi üçün bütün hazırlıq işləri görülüb başa çatdırılmışdı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev birgə əməliyyat-taktiki təlimləri izləmək üçün təlim mərkəzinə gəlmişdi.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi, birgə əməliyyat-taktiki təlimdə nümayiş etdiriləcək təlim yerlərinin ümumi sxemi barədə məruzə etdi. Sonra ölkəmizin başçısına Azərbaycan Ordusunun yeni, ən müasir standarlara cavab verən hərbi texnika, silah və sursatları təqdim olundu.

İrimiqyaslı əməliyyat-taktiki təlimin keçiriləcəyi əraziyə sakitlik çöküb. Hərbçilər təlimin başlayacağı anı gözləyirlər. Döyüş vəziyyətinə gətirilən silahlar hədəflərə tuşlanıb, barmaqlar isə tətikdə hazırdır.

Arada yaranmış vaxtdan istifadə edib təlimin iştirakçısı olan zabit və əsgərlərlə görüşüb söhbət etdim. Kapitan Fuad Mehdiyev xidməti borcunu uzun müddət cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirib. Belə irimiqyaslı təlimlərdə də dəfələrlə iştirak edib. Onun bu gün hədəflərə atəş açacağı silah ən müasir silahlardandır. Bu silahın hədəfi məhv etməsinə şübhə yoxdur. Silah əsasən də düşmənin zirehli texnikasını məhv etmək üçün nəzərdə tutulub.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 iyun 2014-cü il tarixli sərəncamı ilə müddətli həqiqi hərbi xidmətə çağırılan və müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçulara Azərbaycan Respublikası Müdafiə nazirinin

# təbrik-müraciəti

Yoldaş hərbi qulluqçular!

Bu gün sizin hər birinizin həyatında əlamətdar və yaddaqalan gündür.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə müddətli həqiqi hərbi xidmətini başa vuran hərbi qulluqçularımız ehtiyata buraxılır, müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşlarımız isə ordu həyatına qədəm qoyurlar. Bu münasibətlə sizi və valideynlərinizi təbrik edirəm.

Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "Orduda xidmət edən əsgərlər, borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar".

Mən böyük qürur hissi ilə qeyd edirəm ki, siz həqiqətən xalqımızın hörmət və ehtiramını qazanmış Vətənin mübariz əsgərlərisiniz.

Xidmətini başa vuran gənclərimiz Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalaraq ölkəmizin ərazi bütövlüyünün qorunması, əhalinin təhlükəsizliyinin təmin edilməsi və düşmən təxribatlarının qarşısının alınmasında öz vəzifə borclarını şərəf və vicdanla yerinə yetirmişlər.

Ordu həyatına yenicə qədəm qoyan gənclərimiz isə bilməlidirlər ki, əsgər həyatının özünəməxsus çətinlikləri var. Bu yol heç də hamar yol deyildir. Milli-mənəvi dəyərlərimizə yaxından bələd olan, tariximizi yaxşı bilən, Vətənimizi, torpağımızı, xalqımızı ürəkdən sevən, hərb elmini, etibar edilmiş silah və texnikanı müasir tələblər baxımından dərindən öyrənən, komandir və rəislərin əmrlərini layiqincə yerinə yetirən hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçəcək və xalqımızın, millətimizin, ölkə rəhbərliyinin hörmət və etibarını qazanacaqdır.

Siz unutmamalısınız ki, torpaqlarımızın bir hissəsi 20 ildən artıqdır ki, düşmən tapdağındadır. Bizim qarşımızda duran ən böyük vəzifə bu torpaqları işğaldan azad etməkdir. Azərbaycan Prezidenti Qarabağ məsələsinin sülh və danışıqlar yolu ilə həll olunması üçün qətiyyətli və inamlı addımlar atır. Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, onun güclü dövləti, güclü ordusu və qətiyyətli Prezidenti vardır. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında bu günlərdə keçirilən irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri bir daha təsdiq etdi ki, Azərbaycanın istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir və hazır olan ordusu vardır.

Mən xidmətini şərəflə başa vurmuş hərbi qulluqçulara Vətənə nümunəvi xidmət etdiklərinə görə təşəkkür edir və onlara uğurlu yol arzulayıram. Əminəm ki, gənc əsgərlərimiz xidmət keçmiş hərbi qulluqçuların ənənələrini davam etdirərək, onların layiqli davamçıları olacaq, Silahlı Qüvvələrimizin döyüş salnaməsinə yeni-yeni parlaq səhifələr yazacaq, Vətənin qalib əsgəri kimi həqiqi hərbi xidmətdən ehtiyata buraxılacaqlar.

Müstəqil dövlətimiz naminə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

İnanıram ki, siz hər an Ali Baş Komandanın əmrlərinə hazır olacaqsınız.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**

## Azərbaycan Silahlı Qüvvələrində 20 təqvim ili və daha çox xidmət etmiş 32 hərbi qulluqçunun mənzillə təmin olunması ilə bağlı qərar qəbul edilmişdir

***Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli fərmanı ilə yaradılmış komissiyanın iyunun 24-də növbəti iclası keçirilmişdir.***

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, komissiya qarşısında qoyulan vəzifələrin icra vəziyyəti barədə danışan komissiyanın sədri, maliyyə naziri Samir Şərifov bildirmişdir ki, müvafiq meyarlara uyğun olan hərbi qulluqçuların dövlət vəsaiti hesabına mənzillə təmin olunması prosesi davam edir. Komissiyanın mütəmadi olaraq keçirilən iclaslarında 20 təqvim ili xidmət etmiş və fərmanla müəyyənləşdirilmiş meyarlara cavab verən hərbi qulluqçular mənzillə təmin olunurlar.

İclasda komissiya tərəfindən hərbi qulluqçulardan daha 32 nəfərin dövlət vəsaiti hesabına mənzillə təmin olunmasına dair qərar qəbul edilmişdir.

Bununla da, bu günədək Komissiya tərəfindən qəbul edilmiş qərarlarla müvafiq mənzillər 245 hərbi qulluqçunun mülkiyyətinə verilmişdir.

## Azərbaycanda həqiqi hərbi xidmətə çağırış başlanmışdır

***Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, 2014-cü il iyulun 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlanmışdır.***

AzərTAc xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaqdır.

Sərəncama əsasən, 1996-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1979-1995-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Sərəncama uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2014-cü il iyulun 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Qeyd edək ki, Prezident İlham Əliyev iyunun 2-də Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalamışdır.

# Müdafiə naziri Fransa Respublikası Müdafiə Nazirliyinin nümayəndəsini qəbul edib



***İyulun 1-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikası Müdafiə Nazirliyinin Silahlandırma Baş İdarəsinin Avropa və Cənubi Amerika üzrə direktor müavini cənab Jan-Kristov Nuronu qəbul edib.***

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Paskal Mönye də iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri MDB Müdafiə nazirləri Şurasının iclasında iştirak edəcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 4-də Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində keçiriləcək Müstəqil Dövlətlər Birliyi Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edəcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Bakıda ATƏT Parlament Assambleyasının iyirmi üçüncü illik sessiyası çərçivəsində komitə iclasları və xüsusi müzakirə keçirilmişdir

***Bakıda ATƏT Parlament Assambleyasının "Helsinki+40: Hər kəs üçün təhlükəsizliyə doğru" devizi altında iyirmi üçüncü illik sessiyası iyunun 29-da işini komitə iclasları və xüsusi müzakirə ilə davam etdirmişdir.***

Tədbirdə çıxış edən Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Milli Məclis sədrinin müavini Bahar Muradova regiondakı hərbi və siyasi problemlərin qətnamə layihəsində öz əksini tapdığını bildirmişdir. O, demişdir ki, 20 ildən artıqdır davam edən Dağlıq Qarabağ problemi məhz bu regionda qeyri-qanuni keçirilən "referendum" və bir neçə dəfə qeyri-qanuni keçirilən "parlament" və "prezident" seçkiləri nəticəsində mövcuddur. Erməni deputat buradakı çıxışında Dağlıq Qarabağı özünü ifadə etmiş "dövlət" kimi qələmə verməyə çalışır, hətta gülməli bir ifadə işlədərək onun demokratikliyini iddia edir. Dağlıq Qarabağa səfər edən həmkarlarımız bu regionun hansı vəziyyətdə olduğunu və orada çox kasıb, bütün imkanlardan məhrum insanların acınacaqlı şəraitdə yaşadıqlarını görür. "Dağlıq Qarabağ xalqı" deyilən bir məhfum yoxdur. Orada yalnız etnik ermənilər yaşayır. Biz onların bugünkü durumuna görə narahatlıq hissi keçiririk, çünki bu insanlar "böyük Ermənistan" ideyasının girovuna çevrilmişlər. Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri, xüsusilə Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının tribunasından, eləcə də ATƏT Parlament Assambleyasının plenar iclasının açılışında söylədiyi həqiqətləri eşitmək istəmir. Lakin həqiqət qəbul edilməlidir.

Müzakirələrdə iştirak edənlər qətnamə layihəsi ilə bağlı fikirlərini bölüşmüş, müəyyən düzəlişlərin olunmasını təklif etmişlər.

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir

**(Əvvəli 1-ci səhifədə)**

- Belə irimiqyaslı təlimlərdə artıq dördüncü dəfədir iştirak edirəm, - deyə kapitan Fuad Mehdiyev bildirdi. - Bu cür təlimlərin ordunun döyüş hazırlığına böyük təsiri var. Çünki bu təlimlər döyüş şəraitinə uyğun olaraq keçirilir. Bir neçə gündür ki, təlimlərə hazırlaşırıq. Üç gün əvvəl məşq keçirildi. Hazırlığımız yüksək olduğundan müəy-



yənləşdirilmiş hədəfləri dəqiq vurduq. Bu bir daha göstərdi ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir.

- Ordumuzun ən müasir silahlarla təmin olunması ürəyimizcədir, - deyə baş leytenant Mirdamət Bağıyev söhbətimizə qoşuldu. - Bizim hədəflərə atəş açdığımız bu silahlar dünyanın ən inkişaf etmiş ölkələrinin birində hazırlanıb. Düşmənin zirehli texnikasını məhv etmək üçün nəzərdə tutulmuş bu silahı biz asanlıqla idarə etməyi bacarırıq. Bunun üçün müvafiq kurslar keçib, onun taktiki-texniki sirlərinə yiyələnmişik. Bu günə qədər bu müasir silahdan beş dəfə atəş açmışam. Bütün atəşlərim dəqiq olub, inşallah, bugünkü təlimdə də yaxşı nəticə göstərəcəyik.

Daha sonra baş leytenant Ramil Tanrıverdiyev, müddətdən artıq xidmət edən hərbi qulluqçular çavuş Ehtiram Məmmədov və kiçik çavuş Aslan Hüseynov da təlimdə iştirak etdiklərindən məmnun olduqlarını bildirdilər.

Bu hərbçilərlə söhbətimi bitirdikdən sonra qarşıdakı mövqelərə üz tuturam. Buradan təlim meydanı daha aydın və geniş görsənirdi. Polkovnik-leytenant İlqar Lətifov bizimlə söhbətində dedi ki, tankçılarımız bu irimiqyaslı təlimə ciddi hazırlaşıblar. "İnanıram ki, həmişəki kimi onlar bu dəfə də hədəfləri dəqiq vuraraq ümidləri doğruldacaqlar. Belə irimiqyaslı təlimlər bir daha ordumuzun gücünü, qüdrətini göstərir. Ordumuz daim inkişaf edir, formalaşır, yeniləşir. Bu inkişaf, bu tərəqqi hər addımda hiss olunur. Belə qüdrətli bir ordunun sıralarında xidmət etməkdən qürur duyuruq".

Söhbətdən sonra zabit İlqar Lətifov təlim meydanındakı hədəflərlə, qoşun növlərinin təyinatları ilə bizi tanış etdi. Bir azdan sərin meh əsən bu dərələrdə mərmilər gurlayacaq, yer-göy lərzəyə gələcəkdi.

Bir an olsun belə rabitə susmaq bilmir. Hər dəqiqə müxtəlif əmr və tapşırıqlar verilir. Səs-səsə qarışır, uğultu və gurultu bəzi sözləri eşidilməz edir. Artıq təlim başlayır. İlk olaraq artilleriya qurğuları "dilə" gəlir. Gurultulu səslər göz işlədikcə uzanıb gedən dərələrdə əks-səda verir. Uzaq məsafədən atılan odlu mərmilər qarşıdakı yamacda quraşdırılmış hədəflərin üstünə düşür. Qısa vaxt ərzində dərələr toz-torpağa bürünür, bir anlıq ətraf görünməz olur. Artilleriyaçıların vurduqları hədəflərdən tüstü qalxır. Deməli, hədəflər təyin olunmuş vaxt çərçivəsində dəqiq vurulur.

Tankçılar da öz bacarıqlarını göstərirlər. Növbə ilə hədəflərə həm iriçaplı pulemyotlardan, həm də tanklardan atəş açılır. Atəş açılan an zirehli texnikanın qarşısını alov bürüyür, yaranan hava boşluğu ətrafa toz püskürür. İriçaplı pulemyotlardan çıxan odlu mərmilər durnalar kimi qatarlaşaraq sürətlə hədəfə doğru uçur. Sürətlə hədəfə dəyən mərmilərdən bəziləri bir az da yuxarı qalxıb sönür, səmada onun yerini ardınca gələn başqa bir mərmi tutur. Üst-başımız toz-torpağa bürünür. Təlimə cəlb olunmuş tankların hamısının qülləsində üçrəngli bayrağımız dalğalanır. Bu anlarda bayrağımızın Şuşada, Xankəndində də belə dalğalanması ürəyimizdən keçir.

Heç kimə sirr deyil ki, ordunun gücü onun zabit və əsgərlərinin döyüş hazırlığının yüksək olmasında, silahların sirlərinə hansı səviyyədə bələd olmasındadır. Hər addımda hiss olunur ki, ordumuzun zabit və əsgərləri yüksək döyüş qabiliyyətinə malikdirlər. Məhz buna görə də onlar hədəfləri dəqiq vuraraq yaxşı nəticə göstərirlər. Bu gün təlimdə iştirak edən hərbçilərin məqsədi, amalı müasir silahların sirlərinə yiyələnmək və torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Onların hazırlığından, fəallığından hiss olunur ki, məqsədlərinə, amallarına asanlıqla çatacaqlar.

Tankçıların da atəşi dəqiq olur. Hədəflər məhv edilir. Sevincdən tankçıların üzü gülür. Növbə ilə zirehli texnikalardan hədəflərə atəş açılır. Hər açılan atəş hərbçiləri uğurlara yaxınlaşdırır.

Budur, indi də səmanın dərinliyində qırıcı təyyarələrimiz görünür. Şahinlərimiz qartal kimi göy üzündə süzərək hədəflərə atəş açırlar. Təyyarədən atılan mərmilərin səsi daha möhkəm eşidilir. Yer-göy lərzəyə gəlir. Təyyarələr havada müxtəlif manevrlər edərək hədəfə zərbə endirirlər. Mərmilərdən arxada isə havada müxtəlif formalı tüstü zolaqları qalır. Bütün bunlar təlim iştirakçılarına xüsusi zövq verir. Təyyarələr təlim keçirilən səmanı





tərk edər-etməz sağ və sol tərəflərdən vertolyotların gur səsi eşidilir. Budur, bir azdan onları təlim meydanının səmasında açıq-aydın görürük. Növbə ilə irəli şığıyan vertolyotlar bir-birinin ardınca hədəfə atəş açaraq manevr edib geri dönürlər. Zabit və əsgərlər diqqətlə təlimin gedişini izləyirlər. Çox keçmir ki, vertolyotlar yenə də təlim meydanının səmasında görünür. Onlar hündür təpənin zirvəsinə desant atırlar. Hiss olunur ki, təlim prosesində hər kəs qarşısına qoyulmuş tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirməyə çalışır.

Qeyd edək ki, təlimlərə 4 min nəfər şəxsi heyət, 80 tank, 100-dən çox zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş vertolyotu cəlb olunub. Elə ilk addımdan hiss olunurdu ki, birgə əməliyyat-taktiki təlimlərində qarşıya qoyulan bütün məqsədlərə nail olunacaq. Çünki təlimə cəlb olunmuş bütün şəxsi heyət yüksək döyüş əzmində idi.

Silahlı Qüvvələrin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin hissələrinin birgə əməliyyat-taktiki təlimlərini izlədikdən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilər qarşısında çıxış etdi. Ali Baş Komandan birgə əməliyyat-taktiki təlimlərinin yüksək səviyyədə keçirildiyini bildirərək, qarşıda duran bütün vəzifələrin icra edildiyini, bütün hədəflərin vurulduğunu qeyd edib.

Dövlət başçısı Azərbaycanda güclü ordu olduğunu bildirərək ordunun potensialının gündən-günə möhkəmləndiyini, gücləndiyini vurğulayaraq deyib: "Ordu quruculuğu bizim dövlət siyasətimizdir, prioritetdir və son illərdə bu istiqamətdə çox böyük işlər görülüb. Ordumuz yeni texnika ilə təchiz edilir. Bu gün bu texnikanın bir hissəsi burada nümayiş etdirilib və sonra təlimlərdə iştirak edib".

Prezident İlham Əliyev daha sonra qeyd edib ki, bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. "Bu göstəriciyə görə bizim ordumuz dünyada ən güclü ordular sırasındadır. Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. Bu, bizim prioritetimizdir və bundan sonra da hərbi xərcləri artıracağıq. Son 10 il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artıb və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən 2 dəfə çoxdur".

Ali Baş Komandan çıxışı zamanı torpaqların hələ də işğal altında olduğunu qeyd edərək, Azərbaycan xalqının bu işğaldan əziyyət çəkdiyini vurğulayıb: "Uzun illərdir münaqişə öz həllini tapmır. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. Bizə qarşı ikili standartlar siyasəti aparılır. Dəfələrlə bu barədə fikirlərimi müxtəlif kürsülərdən ifadə etmişəm. Bu gün də demək istəyirəm ki, bizə qarşı göstərilən ədalətsizlik qəbuledilməzdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var ki, erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Üstündən 20 il keçib. Onların heç biri icra edilmir. Beynəlxalq ictimaiyyət buna biganə yanaşır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər, ATƏT-in Minsk qrupu münaqişənin sülh yolu ilə həllindən daha çox qarşılıqlı etimad tədbirlərinin gücləndirilməsi ilə məşğuldur. Qarşılıqlı etimad tədbirlərinin içərisində birinci tədbir erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasıdır və danışıqlar mahiyyəti üzrə aparılmalıdır. Əfsuslar olsun ki, vasitəçilər danışıqlarda ədalətin bərpa edilməsinə deyil, daha çox müharibənin olmamasına səy göstərirlər. Belə olan halda Azərbaycan ordu quruculuğuna daha da böyük diqqət göstərir, göstərəcək və danışıqlar nəticə verməsə, bizim başqa yolumuz qalmayacaq".

Hərbçilərin sosial müdafiəsinin yüksək səviyyədə təmin edildiyini bildirən dövlət başçısı hərbçilərin maaşlarının, pensiyalarının vaxtaşırı qaldırıldığını və iki il bundan əvvəl imzalanmış sərəncama əsasən, orduda 20 il qüsursuz xidmət göstərmiş şəxslərə dövlət tərəfindən mənzillərin verildiyini qeyd edib. "Hazırda 200-ə qədər mənzil verilib. Bu ilin sonuna qədər veriləcək mənzillərin sayı 500-ə çatacaq. Bu, dövlətin öz hərbçilərinə olan diqqətinin təzahürüdür və hərbçilərin sosial müdafiəsi bizim üçün böyük əhəmiyyət kəsb edən məsələdir. Azərbaycan müharibə şəraitində yaşayır. Belə olan halda ordu quruculuğu nəinki dövlət qurumları, hər bir vətəndaş üçün ən vacib, ən ümdə vəzifə olmalıdır".

Ali Baş Komandan çıxışında ordu quruculuğu istiqamətində aparılan islahatların düşmən dövləti təşvişə saldığını da qeyd etdi. "Hazırda güclənən Azərbaycan Ordusu Ermənistan üçün böyük



təhlükə mənbəyidir. Özləri də öz məğlubiyyətlərini etiraf edirlər. Çünki onların yüksək vəzifəli rəsmi şəxsləri dəfələrlə bəyan etmişlər ki, Ermənistan öz təhlükəsizliyini təmin edə bilmir, o ölkə müstəqil sayıla bilməz. Bu etiraf əslində, məğlubiyyətin etirafıdır. Onlar bizim qarşımızda duruş gətirə bilmir, özləri bunu etiarf edir. Bu gün güclənən Azərbaycan Ordusu məsələnin həlli üçün ən birinci amildir. Hətta atəşkəs rejimi şəraitində bizim güclənən ordumuz erməniləri təşvişə salır. Biz hamımız yaxşı bilirik və operativ məlumat da alırıq ki, Ermənistan ordusu təşviş içindədir. Biz təmas xəttində üstünlüyü tam şəkildə əlde almışıq. Təmas xəttində vəziyyətə tam şəkildə biz nəzarət edirik".

Dövlət başçısı Azərbaycan cəmiyyətində, Azərbaycan Ordusunda ruh yüksəkliyi müşahidə olunduğunu da qeyd etdi. "...Azərbaycan güclənir, regionda güc mərkəzidir. Bizim iqtisadi gücümüz hərbi gücə çevrilir. Biz bundan sonra da öz hərbi imkanlarımızı artıracağıq, bundan sonra da danışıqlar masasında prinsipial mövqeyimizi gücləndirəcəyik. Bizim prinsipial mövqeyimizin əsas mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir, Azərbaycan Ordusudur, Azərbaycan əsgəridir. Mən əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Bunu biz bu gün də edə bilərik. Azərbaycan bayrağı işğal edilmiş bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə qaldırılmalıdır və qaldırılacaq. Bu bizim əsas vəzifəmizdir. Biz bu vəzifəyə çatacağıq. Bugünkü təlimlər bir daha onu göstərir ki, biz bu hədəfə bir addım da yaxınlaşmışıq. Azərbaycan öz ordusuna, öz dövlətinə inanır, ordusuna və dövlətinə güvənir. Azərbaycan dövləti, Azərbaycan Ordusu öz vətəndaşını müdafiə edir. Eşq olsun Azərbaycan Ordusuna!"

Sonra dövlət başçısı bir qrup hərbçiyə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları, eləcə də qiymətli hədiyyələr təqdim etdi. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Ordusunun zabit və əsgərləri tarixi bir gün yaşadılar. Təlimdə iştirak edən hərbçilər hədəfləri dəqiq vuraraq hazırlıqlarının yüksək olduğunu nümayiş etdirdilər. Təbiidir ki, bu gün hədəfləri dəqiq vuran zabit və əsgərlər sabah döyüş meydanlarında düşmənin zirehli texnikasını və canlı qüvvəsini qətiyyətlə məhv edəcəklər.

**Mayor Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

# Genetik müayinələr günümüzün aktuallığıdır

## Müdafiə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzində aktual mövzuya həsr edilmiş elmi konfrans keçirilib





***Silahlı Qüvvələrimizin hərbi tibb ocaqlarında elmi araşdırmalara son zamanlar böyük fikir verilir. Belə müəssisələrdən biri də Müdafiə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzidir. Bu yaxınlarda mərkəzdə ordu üçün yetərincə aktual mövzuya həsr edilmiş elmi konfrans keçirilib. "Genetik müayinələrin məhkəmə-tibbi ekspertizasında imkanları və tətbiqi" mövzusuna həsr edilmiş tədbir Müdafiə Nazirliyi Baş Klinik Hospitalının II müalicə korpusunda baş tutdu.***

Toxunulan problemin mühümlüyünə görə konfransda Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin, Hüquq İdarəsinin, Mərkəzi Hərbi Həkim Komissiyasının, Baş Klinik Hospitalının, Mərkəzi Hərbi və Stomatoloji poliklinikalarının, Sanitar-Epidemioloji Nəzarət Mərkəzinin, hərbi prokurorluq, hərbi məhkəmə və hərbi təhqiqat orqanlarının, həmçinin Azərbaycan Milli Elmlər Akademiyası Genetika İnstitutunun, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin, Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin, Azərbaycan Tibb Univesitetinin Məhkəmə Təbabəti kafedrası və Hərbi Tibb Fakültəsinin, habelə ABŞ-ın "BODE Technology USA" təşkilatının mütəxəssisləri iştirak edirdilər. Ümumiyyətlə, elmi tədbirə 60-dan çox hərbi və mülki mütəxəssis qatılmışdı ki, bu da bir daha mövzunun aktuallığına dəlalət edir.

Konfransı giriş sözü ilə Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin zabiti, tibb xidməti polkovniki Həşim Cəfərov açaraq idarə rəisi general-mayor Natiq Əliyevin salamlarını çatdırdı, müasir məhkəmə-tibbi ekspertizasında genetik müayinənin önəmini vurğuladı.

Silahlı Qüvvələrin baş məhkəmə-tibb eksperti, tibb xidməti polkovnik-leytenantı Rasim Əliyev konfransa çıxarılmış məruzələrin aktuallığını iştirakçıların diqqətinə çatdırdı. Məhkəmə-tibbi ekspertizalar zamanı genetik müayinələrin üstünlük təşkil etdiyini dilə gətirən zabit bəzi ekspertizalarda, o cümlədən şəxsiyyətin identifikasiyası, cinsi cinayətlər, mübahisəli qohumluq əlaqələrinin təyin edilməsində bu metodun böyük önəm kəsb etdiyini bildirdi.

Silahlı Qüvvələrin baş məhkəmə-tibb eksperti həmçinin genetik müayinələrin ordumuz, eyni zamanda ölkəmiz üçün əhəmiyyətli olduğunu bildirdi.

Qarabağ müharibəsindən 20 il ötməsinə baxmayaraq hələ də ölkəmiz savaş şəraitindədir. Cəbhədə ağır döyüşlər getdiyi şəraitdə erməni vəhşiliklərinin qurbanı olmuş nə qədər soydaşımız məhv edilərək tanınmaz hala salınmışdı. Belə insanların şəxsiyyətinin müəyyən edilməsi və mənəvi rahatlıq üçün valideyn və yaxın qohumlarına verilməsi az əhəmiyyət daşımır.

Mütəxəssislər hesab edirlər ki, hazırda istifadə edilən məhkəmə-tibbi bioloji metodların tətbiqi zamanı qeyri-dəqiq nəticələrin əldə edilməsi, keyfiyyətini itirmiş nümunələrdə və bərk toxumalarda analizlərin aparılmasının mümkün olmaması böyük xəta riski yaradır. Məhkəmə-tibbi-bioloji ekspertizalarını dünya standartlarına uyğun, dəqiq və əhatəli yerinə yetirmək üçün genetik tədqiqatların aparılması mühüm və əvəzolunmaz bir metoddur.

Konfransda çıxış üçün ilk söz "BODE Technology USA" təşkilatının MDB ölkələri və Türkiyə üzrə nümayəndəsi tibb elmləri doktoru Vüqar Hüseynova verildi. O, müasir dünyada məhkəmə təbabəti sahəsində genetik müayinələrin yeri, onların hüquqi araşdırmalarda əhəmiyyəti məsələsindən danışdı, genetik müayinələrin dəqiqliyi, mötəbərliyi və hüquq-mühafizə orqanları tərəfindən qəbul edilən sübut növü olmasını bildirdi.

Müdafiə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin zabiti Nazir Allahverdiyev genetik müayinələrin məhkəmə təbabətində tətbiqi mövzusunda çıxış etdi. Məruzəçi genetik araşdırmaların ölkəmiz və ordumuz üçün əhəmiyyətindən söz açdı, bioloji təhlükəsizlik, itkin düşmüş şəxslərin aşkar edilməsi, böyük tələfatlar zamanı insan qalıqlarının müəyyən edilməsi zamanı əvəzsiz metod olmasını söylədi.

Sonra həmin mərkəzin mütəxəssisi Aytən Həsənova çıxış edərək molekulyar patologiyaların aşkar edilməsində, həmçinin dünyada geniş yayılmış onkoloji, infeksion və irsi-genetik xəstəliklərin aşkar olunmasında genetik müayinələrin önəmini diqqətə çatdırdı.

Konfransda fürsət tapıb tibb xidməti polkovnik-leytenantı Rasim Əliyevlə yaxından ünsiyyətdə olduq və bizi maraqlandıran məsələlərə hərbi tibb mütəxəssisi aydınlıq gətirdi. Söhbət zamanı zabit R.Əliyev daha bir önəmli məsələyə toxundu.

- Silahlı münaqişələr zamanı insan itkiləri qaçılmazdır, - dedi. - Terror aktları, aviaqəza və digər kütləvi tələfat hallarında ölərək tanınmaz hala düşmüş şəxslərin aşkar edilməsi yalnız genetik müayinələrin yüksək həssaslığı və dəqiqliyi nəticəsində mümkündür. Ona görə hesab edirəm ki, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzində genetik laboratoriyanın yaradılması günümüzün aktuallığıdır. Nəzərə almaq lazımdır ki, beynəlxalq məhkəmələr ilk növbədə genetik müayinələrdən ibarət rəyləri nəzərə alır.

Konfransın yekununda mövzular ətrafında fikir mübadiləsi aparıldı və tədbir iştirakçılarının sualları cavablandırıldı.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Ayrumyan: "Sonda yenə uduzan Ermənistan olacaq"



"Ermənistandan Rusiyaya gedəcək dəmiryolu açılmazsa, avtomatik olaraq İrəvanı bütün məhsulların qiymətinin bahalaşması gözləyir".

Belə açıqlama ilə erməni analitiki Naira Ayrumyan çıxış edib. O, Lavrovun Ermənistana səfəri barədə danışarkən söyləyib: "Ermənistandan Rusiyaya gedəcək dəmiryolu mühüm əhəmiyyət daşıyır. Bu olmasa, İrəvanı bütün məhsulların qiymətinin avtomatik bahalaşması gözləyir. Gürcülər, təbii ki, bu yolu açmayacaqlar. Çünki Avropa İttifaqının assosiativ üzvü olurlar. Görünür, Lavrov da buna görə Ermənistana gəlib. İrəvanda Sərkisyandan hesabat soruşulacaq. Artıq bölgədə Ermənistan üçün heç də uğur gətirməyəcək siyasi proseslər başlayır. Bu həftə regional proseslər üçün ən ağır olacaq. Rusiya Azərbaycan və Türkiyə vasitəsilə İranın Avropaya gedəcək kəmərlərinin qarşısını alacaq. Bütün bunların fonunda bölgədə istənilən hadisə baş verə bilər. Amma sonda yenə uduzan Ermənistan olacaq".

## Poroşenkodan Krım açıqlaması



Ukrayna Prezidenti Petro Poroşenko, Rusiya ilə davam edən danışıqlarda hədəfin Ukraynada sülhün təmin edilməsi olduğunu, ancaq Krımı öncə almadan münasibətlərin tam normallaşmasının mümkün olmayacağını bildirib.

Strasburqda Avropa Şurası Parlament Məclisində Poroşenko: "Krımı öncə almadan əlaqələrimizin normallaşması mümkün deyil, ancaq biz sülhsevər insanlarıq. Buna görə, Ukrayna rəhbərliyi və mən sülh planını tətbiq etdik", - dedi.

Poroşenko Fransa Prezidenti Fransua Olland və Almaniya kansleri Angela Merkellə görüşdükdən sonra Rusiya Prezidenti Vladimir Putinlə də telefonda danışdığını söylədi.

## Şimali Koreyadan Cənubi Koreyaya sülh təklifi



Koreya Xalq Demokratk Respublikası Cənubi Koreyaya qarşılıqlı hərbi təcavüzü dayandırmaq təklifi ilə müraciət edib. İki dövlət arasında son günlər münasibət xeyli pisləşib. Şimali və Cənubi Koreya 1950-ci ildən müharibə vəziyyətində olsalar da, 1953-cü ildən sonra aktiv döyüş əməliyyatları keçirilməyib.

Lakin bu il iyunun 26-da Şimali Koreya Yapon dənizində ortamənzilli raketləri sınaqdan keçirib. Bu sınaqların Cənubi Koreyanın Sarı dənizdə hərbi tədbirlərinə cavab kimi həyata keçirildiyi bildirilib.

İndi isə Şimali Koreya bəyanat verərək Cənubi Koreyadan qarşılıqlı düşmənçiliyin dayandırılması haqda təklif edir. Həmçinin Seul hökumətindən Sarı dənizdə mübahisəli ərazilərdə hərbi təlimlərin keçirilməsinə və sərhədyanı zonanın atəşə tutulmasına son qoymaq tələb olunur.

## Əfqanıstanda 260 terrorçu öldürüldü



ANS PRESS-in məlumatına görə, terrorçular Hilmend vilayətində təhlükəsizlik qüvvələrinə hücuma keçib. Əfqanıstan Daxili İşlər Nazirliyinin açıqlamasına görə, silahlı toqquşmalar zamanı 28 əsgər öldürülüb, 260 terrorçu isə məhv edilib.

Qeyd edək ki, iyunun 26-dan etibarən "Taliban" terror qruplaşması Əfqanıstan təhlükəsizlik qüvvələrinə genişmiqyaslı hücumlar həyata keçirir. Həmin gün 800 terrorçu hərbçilərə hücum etmişdi.

Ötən ay ABŞ Prezidenti Barak Obama Əfqanıstanda olan ABŞ qoşunlarının 2016-cı ilin sonuna qədər ölkədən çıxarılacağını bəyan etmişdi.

## Tikrit İŞİD-dən geri alındı



İraq ordusu Tikrit şəhərini İŞİD-dən geri alıb. İraqın şimalındakı Səlahəddin vilayətinin valisi Əhməd Abdullah əl-Cuburi Tikrit şəhərinin İraq Şam İslam Dövləti (İŞİD) silahlı qruplarından geri alındığını bildirib.

"Havadan edilən dördtərəfli hücum nəticəsində İraq ordusu Tikriti İŞİD silahlı qruplarından geri alıb", - deyə vali əl-Cuburi qeyd edib. İraqın "Əl-İraqiyyə" televiziyası isə İraq ordusu hərbçiləri ilə İŞİD silahlıları arasında yaşanan qarşıdurmalarda 60 İŞİD üzvünün öldüyünü xəbər verib.

Qeyd edək ki, İraqda son zamanlar baş verən qarşıdurmalar nəticəsində İraq Şam İslam Dövləti təşkilatı və bəzi qəbilələr Mosul, Tikrit, Baxibə, Telafer kimi şəhərləri öz idarəsi altına almışdı.

## "Boko Haram" kəndlərə hücum etdi



ANS PRESS-in məlumatına görə, Nigeriyanın şimalında yerləşən Cibok şəhəri yaxınlığında yerləşən kəndə silahlılar hücum edib. Hücum nəticəsində 10 nəfər öldürülüb, xeyli sayda insan yaralanıb.

Verilən rəsmi açıqlamada kəndə hücumun "Boko Haram" qruplaşması tərəfindən həyata keçirildiyi bildirilib.

Qeyd edək ki, dünən Bauçi şəhərində baş verən partlayış nəticəsində 11 adam ölmüş, 28 nəfər yaralanmışdı. "Boko Haram" terror qruplaşması həmçinin Cibokda 200 qızı qaçırmışdı.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Müdafiə Nazirliyi bildirir ki, "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə əlavə edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1005-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 iyun tarixli 281 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 28 sentyabr tarixli 217 nömrəli "Təqvim ilində, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illərində növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etməyən hərbi qulluqçuya (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin təqvim ili, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyasının ödənilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" Qərarına əsasən kompensasiyanın ödənilməsi üçün əlavə maliyyə vəsaiti və sənədləşməyə çox vaxt tələb olunduğundan Müdafiə Nazirliyində bu işlər mərhələli şəkildə aparılır.

Hazırda müdafiənin ön xəttində yerləşən hərbi hissələrdə xidmət edən hərbi qulluqçulara istifadə olunmamış məzuniyyət əvəzi pul kompensasiyası ödənilir. Bundan sonra digər hərbi hissələrdə xidmət edən hərbi qulluqçuların kompensasiyasının ödənilməsi nəzərdə tutulmuşdur.

Qanun qüvvəyə mindiyi 2010-cu il 12 iyun tarixindən sonra ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara pul kompensasiyası müvafiq komissiyalar tərəfindən sənədləşmə və protokol işləri başa çatdırıldıqca müəyyən olunmuş qaydada ödəniləcəkdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2014-cü il 28 mart tarixli Qərarına uyğun olaraq 2010-cu il iyunun 12-dək ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara istifadə olunmamış məzuniyyət əvəzi pul kompensasiyanın məbləğinin və ödəmə qaydalarının müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı qəbul edildikdən sonra həmin kateqoriyadan olan hərbi qulluqçulara ödənişlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

* * *

Azərbaycan-Litva ikitərəfli əməkdaşlıq planına əsasən, iyulun 1-dən 4-dək Bakı şəhərində müdafiənin idarə olunması üzrə seminar və Azərbaycan-ABŞ iş planına əsasən, iyulun 1-dən 3-dək Lyublyana şəhərində (Sloveniya) maddi-texniki təminat məsələləri üzrə seminar keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

* * *

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 2-də Goranboy rayonu Tapqaraqoyunlu kəndinin cənub-qərb istiqamətindəki qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və səhra köməkçisi Yevgeni Şarov keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Piter Svedberq və Jiri Aberle keçirəcəklər.

* * *

**1 iyul 2014-cü il.**

Erməni silahlı bölmələri bu gecə Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Şıxlar və Xocavənd rayonunun Korupatkino kəndləri yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

*Əsgərin tribunası*



# Vətən bizə əmanətdir

***İlk dəfə hərbi xidmətə çağırış vərəqi gələndə qəlbimdən keçən o oldu ki, Vətənimizə ləyaqətlə xidmət edim. Tanrıma şükürlər olsun ki, bu gün mən istədiyim yerdə -cəbhə bölgəsində xidmət edirəm. Düşmənlə üz-üzə xidmət etməkdən qürur duyuram.***

Vətənimizin ağır günlərində doğulub boya-başa çatdığım Zaqatala rayonunun Suvagil kəndindən Qarabağımıza göz dikmiş erməni quldurlarına qarşı döyüşmək üçün neçə-neçə gənc könüllü olaraq Füzuli, Ağdam, Kəlbəcər, Ağdərə və başqa bölgələrin müdafiəsinə yollandılar. Onlar Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə erməni qəsbkarlara qarşı qəhrəmanlıqla vuruşdular. Döyüşlərdə fərqlənən oğullarımız dövlətimizin müxtəlif orden və medalları ilə təltif olundular. Bu zaman onların arasında şəhid olanlar da, yaralananlar da, sağ-salamat doğmalarının yanına qayıdanlar da oldu. Elimizdə, obamızda Vətən qarşısında xidməti olan hər kəsə diqqət və qayğı var.

Deyirlər, hərbi xidmət əsl kişilik və mərdlik məktəbidir. Bu kəlamın necə həqiqət olduğunu bir ilə yaxın əsgərlik dövründə gördüm. Burada xidmət etmək üçün hər kəsdən mərdlik tələb olunur. Biz heç vaxt düşməndən qorxmamışıq, mövqelərimizə erməni atəş açanda dərhal cavab vermişik. Bunun üçün yetərincə hərbi biliyə və təcrübəyə malikik. Peşəkar komandirlərdən aldığımız biliklər hər zaman karımıza gəlib. Onların verdikləri əmrləri sözsüz yerinə yetiririk. Səngər həyatı bizi daha mətin edir. Hər zaman Ali Baş Komandanın əmrini gözləyirik. Ordumuzun güclü olduğunu dəfələrlə postlarımıza olan düşmən həmlələrinin qarşısı qətiyyətlə alındıqda gördüm.

Hazırda xidmət etdiyim postla düşmən arasında məsafə olduqca azdır. Bizdən daim ayıq-sayıq xidmət etmək tələb olunur. Biz burada bir neçə nəfərik, hər birimiz də ölkəmizin müxtəlif bölgələrindənik. Məqsədimiz, məramımız Vətənimizi düşməndən qorumaqdır. Bunun üçün əlimizdən gələni edirik. İçdiyimiz anda sadiq olduğumuzu əməli fəaliyyətimizlə təsdiq edirik. Səngər həyatı nə qədər çətin olsa da, biz bu ağırlığa mərdliklə sinə gəririk.

Mən və silahdaşlarım ön xətdə xidmət etməkdən qürur duyuruq. Burada bizdən əvvəl də xidmət edənlər olub. Onlar da üzərlərinə düşən borcu vicdanla yerinə yetiriblər. Mövqeləri mərdliklə qoruyublar. Düşmənin qəfil hücumlarının qarşısı qətiyyətlə alınıb. O zaman erməni quldurları ilə döyüşdə qəhrəmanlıqlar göstərənlər də olub, Vətən, torpaq uğrunda şəhid olanlar da. Lakin onlar tutduqları mövqelərdən bir addım belə geri çəkilməyiblər. Əksinə, düşməni ağır itkilər verərək geri çəkilməyə məcbur edibblər. Biz də həmin cəsur döyüşçülərin davamçılarıyıq. Təki Vətən yaşasın!

**Rcai MÜLKÜMOV,**
**"N" hərbi hissəsinin əsgəri**

# Silahlı Qüvvələrin nümayəndələri beynəlxalq hərbi tibbi konqresdə iştirak ediblər

***Azərbaycan Respublikası Silahlı Qüvvələri tibb xidmətinin üç nəfərdən ibarət nümayəndə heyəti İstanbul şəhərində keçirilən "Hərbi münaqişələr və təbii fəlakətlər zamanı tibbi yardımın təşkili və göstərilməsi" mövzusunda birinci Hərbi Tibbi Konqresdə iştirak ediblər.***

Görüşə Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan və Qırğızıstandan nümayəndələr qatılıb.

Silahlı Qüvvələrin baş cərrahı, tibb elmləri doktoru, tibb xidməti polkovniki Famil Babayev konqresin açılışında çıxış edərək hərbi münaqişələr və təbii fəlakətlər zamanı tibbi yardımın təşkili, xəsarət alanların çeşidlənməsi, müxtəlif qruplara tibbi yardım prinsipləri, tibbi və digər ehtiyacların müəyyən edilməsi məsələlərinin zəruri olduğunu vurğulayıb.

Bundan əlavə, hərbi münaqişələr və təbii fəlakətlər zamanı müxtəlif qurumlar, o cümlədən Səhiyyə Nazirliyi, Silahlı Qüvvələr və s. arasında əlaqələr, birgə fəaliyyətin əlaqələndirilməsi məsələləri barədə də çıxışlar dinlənilib, təcrübə və fikir mübadiləsi aparılıb.

Konqresdə hərbi münaqişələr və təbii fəlakətlər zamanı travmaların müalicəsi məsələlərinə ayrıca bölüm həsr olunub, müasir diaqnostika, müalicə üsulları və yanaşmalar barədə müxtəlif çıxışlar dinlənilib, müzakirələr aparılıb, "dəyirmi masa"lar keçirilib.

Ayrıca olaraq hərbi münaqişələr və təbii fəlakətlər zamanı epidemioloji vəziyyətin öyrənilməsi və sabitləşdirilməsi, infeksion xəstəliklərin müalicə və profilaktikası, peyvənləşdirilmə məsələləri də müzakirə edilib.

Xüsusi vurğulanan məsələlərdən biri də hərbi münaqişələr və təbii fəlakətlər zamanı zərərçəkmişlərin həm erkən, həm də sonrakı dövrlərdə psixoloji reabilitasiyası məsələləri olub.

Sonda türk dövlətlərinin nümayəndə heyətləri rəhbərlərinin iştirakı ilə konqres fəaliyyətinin əlaqələndirmə qrupunun iclası keçirilib və növbəti Hərbi Tibbi Konqresin mövzuları, təşkilati və digər məsələlər müzakirə edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

Azərbaycan Silahlı Qüvvələri - 96

# Musiqi yarışmasına yekun vurulub



Gəncə Qarnizonu Zabitlər Evinin və üçüncü ordu birliyinin birgə layihəsi olan və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümünə həsr olunmuş mahnı müsabiqəsinin yekun konserti keçirilib.

"N" hərbi hissəsinin orkestrinin ifasında əsgər marşının səsləndirilməsi ilə başlayan konsert Gəncə Zabitlər Evinin əməkdaşı Kəmalə Məmmədova və aktyor Eldəniz Tağıyevin aparıcılığı ilə davam etdirilib. Bildirilib ki, Silahlı Qüvvələr Günü ilə əlaqədar keçirilən mahnı müsabiqəsi də ordumuza, Vətənimizə və xalqımıza böyük məhəbbətin ifadəsidir.

Qazax, Tovuz, Ağstafa, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl rayonlarının və Gəncə şəhərinin sakinləri, bölgədə yerləşən hərbi hissələrin nümayəndələri müsabiqədə fəal iştirak ediblər. Yarışma yüksək səviyyədə keçirilib.

Zabitlər Evinin solistləri Fərəh Zeynalova, Natiq Cavadxanlı "Can Azərbaycan", "Qarabağ Şikəstəsi"ni oxuyublar. Sonra musiqi yarışmasının qalibləri meydana dəvət olunublar. Onlar bir daha zəngin musiqimizə, incəsənətimizə, xalqımızın qədim mədəniyyətinə bağlılıqlarını nümayiş etdiriblər. Müsabiqədə birinci yerə Gəncə şəhərindən Müzəffər Yusifli, Qazax rayonundan Murad Nəbiyev, "N" hərbi hissəsinin əsgərləri Namiq Hüseynzadə, Namiq Məmmədov, Elvin Qurbanov, Vaqif Qədirov, Akif Şabanov, ikinci yerə əsgər Elnur Alxanov, Gəncədən Nurlan Hüseynzadə, Ağstafadan Nicat Zeynalov, Qazaxdan Fərid Hacıkərimov, əsgər Fərid Rzalı, üçüncü yerə əsgərlər Gündüz Rzayev, Elnur Fəttahov, Zaur Quliyev layiq görülüblər. Qaliblərə general-leytenant Rövşən Əkbərov tərəfindən fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olunub.



**Mübariz MUSAOĞLU**

# "Ayrılarmı könül candan, Türkiyə-Azərbaycan!"

*Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından bir müddət sonra - 1918-ci ilin 26 iyununda Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə təməli qoyulmuş müasir Azərbaycan Silahlı Qüvvələri çətin, əzablı, amma şərəfli bir inkişaf yolu keçmişdir. Silahlı Qüvvələrin yaradılmasından ötən bu illər ərzində ordumuzun potensial imkanlarının genişləndirilməsi və peşəkar hərbi kadrların hazırlanması sahəsində böyük işlər görülmüşdür.*

Bu gün də Azərbaycan hərbi anda və nizamnamələrə sadiq qalaraq, Vətənə, xalqa, dövlətə sədaqətlə qulluq edən, işğal altında olan ərazilərimizin azad edilməsinə hər an hazır olan, müasir tələblərə cavab verən qüdrətli bir orduya sahibdir. Ölkəmizdə ordu quruculuğuna böyük önəm verilir, onun inkişaf tempi daim diqqət mərkəzində saxlanılır və fəxrlə deyə bilərik ki, Silahlı Qüvvələrimiz son illərdə regionda öz sözünü deməyə qadir olan ən qüdrətli hərbi gücdür.

İyunun 24-də Silahlı Qüvvələrin yaradılmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Hərb Tarixi Muzeyində də tədbir keçirilib.

Tədbirdə Müdafiə Nazirliyindən, ali hərbi məktəblərdən, veteran təşkilatlarından, hərbi hissələrdən, şəhər muzeylərindən, Türkiyənin Azərbaycanda yerləşən hərbi attaşeliyindən nümayəndələr iştirak etmişlər.

Tədbiri müzeyin rəisi ehtiyatda olan polkovnik Sahib Qarayev açaraq qonaqları salamlayıb və Silahlı Qüvvələr Günü münasibətilə onları təbrik edib.



Tədbirdə ordumuzun 1918-1920-ci illər tarixinə həsr olunmuş maraqlı çıxışlar, məruzələr səslənib. Muzeyin rəis müavini Lalə Hüseynova "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda məruzə ilə çıxış edib.

Sonra muzeyin elmi işlər üzrə rəis müavini, tarix elmləri üzrə fəlsəfə doktoru Hacı Həsənovun "Azərbaycan milli ordusunun yaranması tarixindən", elmi işçi Ərəstun Baxışəliyevin "Azərbaycan Xalq Cümhuriyyəti ordusunun uğurlu əməliyyatları" adlı məruzələri də tədbir iştirakçılarında maraq doğurub.

Tədbirdə Azərbaycan Silahlı Qüvvələrinə həsr olunmuş "Yazılsın tarixə bir qızıl xətlə" adlı sənədli film nümayiş etdirilib.

İştirakçıların diqqətini daha çox cəlb edən, gurultulu alqışlara səbəb olan çıxışlardan biri də Azərbaycan Respublikası Daxili Qoşunları Komandanının müşaviri polkovnik Eyyub Şəkərin çıxışı olub. O, çıxışına böyük Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamı ilə başlayaraq, iki xalqın birgə tarixi bağlılıqlarını diqqətə çatdırıb və "Ayrılarmı könül candan, Türkiyə-Azərbaycan!" sözləri ilə çıxışını bitirib.

**Nuranə NƏCƏFOVA,**
**muzeyin əməkdaşı**

# Tovuzda bayram tədbiri



*Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü Gəncə Qarnizonu Zabitlər Evinin təşəbüsü ilə bölgədə yerləşən rayonlarda yüksək təntənə ilə qeyd olunub. Qazax, Ağstafa, Gədəbəy rayonlarında əlamətdar günə həsr olunmuş tədbirlər əsl el şənliyinə çevrilib.*

Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Kəmalə Məmmədova bildirib ki, hər il olduğu kimi, bu il də Silahlı Qüvvələr Günü zəngin, yaddaqalan tədbirlərlə qeyd olunur. Məqsədimiz cəmiyyətlə ordu arasında əlaqələri möhkəmləndirmək və gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə nail olmaqdır. Bu günün gənci sabahın əsgəridir. Buna görə də bu istiqamətdə səmərəli fəaliyyətimizi genişləndirməliyik. Ümummilli lider Heydər Əliyev demişdir: "Orduda nümunəvi xidmət etmək, hər bir gəncin müqəddəs vəzifəsi, vətəndaşlıq borcudur. Onlar Vətənə həmişə sədaqətli, mərd və mətin olmalıdırlar. Belə olduqda gənclərimiz xalqa, Vətənə daha çox fayda verə bilərlər".

Budur, Tovuz rayonunun mərkəzində Silahlı Qüvvələr Gününə həsr olunmuş bədii-əyləncəli tədbirə ictimaiyyət nümayəndələri, müharibə və əmək veteranları, məktəblilər, gənclər və hərbçilər toplaşıblar. Hərbçilərin mətin addımlarla küçələrdən keçməsi yerli sakinlərdə xoş əhval-ruhiyyə, yüksək coşqu yaradıb. Sonra dövlət himni səsləndirilib. Tovuz rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov çıxış edərək bildirib ki, memarı və qurucusu xalqımızın ümummilli lideri Heydər Əliyev olan Azərbaycan Silahlı Qüvvələri ulu öndərin layiqli varisi Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün də qüdrətli inkişaf yolu keçir. "Buna görə də ordumuz Qafqaz regionunda ən güclü, müasir tələblər səviyyəsində qurulan ordudur. Qururla deyə bilərik ki, Silahlı Qüvvələrimiz Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirdir".



Silahlı Qüvvələr Günü münasibətilə hərbçiləri təbrik edən icra başçısı onlara Qələbə gününü birgə qeyd etməyi arzulayıb.

Rayon veteranlar şurasının sədri Mail Hümbətov da öz çıxışında ordumuzun şəxsi heyətinə arzu və istəklərini bildirib.

Sonra "N" hərbi hissəsinin kəşfiyyat bölüyünün əsgərləri döyüş hazırlıqlarını nümayiş etdiriblər.

Sonda zabitlər evinin bədii özfəaliyyət kollektivinin üzvləri, aktyorları Vətənə, torpağa, ordumuza həsr olunmuş mahnılar oxuyublar, səhnəciklər göstəriblər. Respublikanın əməkdar artisti Azərinin oxuduğu mahnılar alqışlarla qarşılanıb.

**Mübariz MUSAYEV**

# Hərbi Dəniz Qüvvələrində də Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbir keçirilib

*Bakının Suraxanı rayonundakı Qurban Abbasov adına Mədəniyyət Sarayının bədii kollektivi 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti qarşısında bayram konserti ilə çıxış edib.*



Tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini, 2-ci dərəcəli kapitan Natiq Bağırov Müdafiə nazirinin və hərbi hissə komandirinin 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini şəxsi heyətə çatdırıb. Bundan sonra Q.Abbasov adına Mədəniyyət Sarayının bədii rəhbəri qiraət ustası Bəhiyyə Nağıyevanın rəhbərliyi altında tədbirin bədii hissəsi başlanıb.

Bədii qiraət dərnəyinin üzvləri Nərmin Namazova, Günel Bağırova, Nicat Şərifov və Şənay Məmmədzadənin ifasında xalqa, Vətənə həsr olunmuş şeirlər oxunub. Bədii qiraət ustası Bəhiyyə Nağıyevanın ifasında "Dəniz, göy və məhəbbət" şeiri şəxsi heyət tərəfindən xüsusi maraqla qarşılanıb.

Solistlərdən Cahan Hacıyeva və Bayram Ağamalıyevanın ifasında şən mahnılar səsləndirilib. Matroslar musiqi sədaları altında rəqs ediblər.

Məzmunlu konsert proqramına və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində fəal iştiraklarına görə sarayın kollektivinə hərbi hissə komandiri adından fəxri fərmanlar təqdim olunub.

**"Azərbaycan Ordusu"**

# Qan yaddaşımız

**Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:**

**Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.**
**Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.**
**Laçın (17 may 1992-ci il) - 1835 kv.km.**
**Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.**
**Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.**
**Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.**
**Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.**
**Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.**
**Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.**

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## Braziliya və Kolumbiya 1/4 finalda!




DÇ-2014-ün 1/8 final mərhələsinə start verilib. Pley-off mərhələsinin ilk oyun günündə keçirilən iki oyunla 1/4 finalçılardan ikisinin adına aydınlıq gəlib. Öncə meydana Braziliya və Çili komandaları çıxıb. Qarşılaşmanın əsas və əlavə vaxtında qalib müəyyənləşməyib. Bu üzdən penalti zərbələrinə ehtiyac duyulub. Daha dəqiq oynayan mundialın ev sahibləri 1/4 finala ilk vəsiqənin sahibi olub. Digər oyunda isə Kolumbiya Uruqvayla üz-üzə gəlib. Ceyms Rodriqesin dublu kolumbiyalıları növbəti mərhələyə daşıyıb.

Hollandiya və Meksika komandalarının mübarizəsindən isə avropalılar qalib ayrılıb - 2:1.

## Avropa çempionatında ilk medal



Fransanın Mant-an-İvelin şəhərində yeniyetmələr və 23 yaşadək kayakçılar və kanoeçilər arasında Avropa çempionatında Matviyçuk - Kupin dueti 2 nəfərlik qayıqla (C-2) 1000 metr məsafəyə yürüşdə bürünc medal qazanıb. Həlledici yürüşdə təmsilçilərimiz 3 dəqiqə 36,432 saniyə nəticə ilə 3-cü yeri tutublar. Qızıl medal rusiyalı Aleksey Korovaşkov - İlya Pervuxin (3:34.072), gümüş medal isə ukraynalı Yuri Vandyuk - Andrey Rıbaçok (3:35.352) duetlərinə qismət olub.

Digər kayakçılarımız və kanoeçilərimiz qarşıdakı hələlik fəxri kürsüyə yüksələ bilməyiblər.

## Güləşçilərimiz "Qran-pri" turnirinin ilk günü 3 qızıl medal qazanmışlar




Almaniyanın Dortmund şəhərində güləş üzrə beynəlxalq "Qran-pri" turnirində sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan millisinin üzvləri də iştirak edirlər. Turnirin ilk günündə güləşçilərimiz 3 qızıl medal qazanmışlar. Hacı Əliyev (65 kq) finalda ötən ilin dünya çempionu, ermənistanlı David Safaryanla görüşü qələbə ilə başa vurub və Almaniya "Qran-pri"sinin qızıl medalına sahib olub.

Güləşçilərimiz Cəbrayıl Həsənov (74 kq) Həmzət Osmanov (86 kq) da turnirin baş mükafatını qazanmışlar.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakim Vüqar Şükürov təmsil edir.

## İki şahmatçımız məktəblilər arasında dünya çempionu olmuşdur



Azərbaycan şahmatçıları Yunanıstanın Kavala şəhərində keçirilən məktəblilər arasında sürətli şahmat və blits üzrə dünya çempionatında çoxlu sayda müxtəlif əyarlı medallar, o cümlədən iki qızıl medal qazanmışlar.

AzərTAc xəbər verir ki, Məhəmməd Muradlı yaşı 11-dək olan şahmatçılar, Aysel Səlimova isə 7 yaşınadək qızlar arasında qızıl medala sahib olmuşlar. Pərviz Qasımov, Ayxan Cabbarlı və Aytən Əmrayeva turnirin gümüş mükafatçıları olmuşlar. Rüstəm Bünyadov, Vüqar Əsədli, Aydın Süleymanlı və Nurtac Heydərli bürünc medal qazanmışlar. Xatırladaq ki, turnirdə 20 ölkədən 240 şahmatçı iştirak etmişdir.

## Qadın voleybolçularımız Türkiyə yığmasına qalib gəlmişlər



Avropa Liqası yarışlarının dördüncü turu çərçivəsində Azərbaycan millisi növbəti oyununu keçirmişdir. AzərTAc xəbər verir ki, Azərbaycan Voleybol Mərkəzində millimiz Türkiyə yığmasını qəbul etmişdir. Macarıstanlı baş hakim Zsolt Mezöffinin idarə etdiyi görüşün ilk hissəsi Azərbaycan millisinin, ikinci hissəsi Türkiyə millisinin hesabına yazılıb - 25:19. Digər iki setdən qalib ayrılan Azərbaycan millisi qələbəsini rəsmiləşdirmişdir. Beləliklə, görüş 3:1 hesabı ilə Azərbaycan millisinin xeyrinə başa çatmışdır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Mayor Fətullayev Arif Rəhim oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Leytenant Hüsənli Adil Amil oğluna 2013-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Osmanlı Altunay Sərvər oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 230
Nüsxə 4570